**"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 20 000 (iyirmi min) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazların

# EMİSSİYA PROSPEKTİ

Bu Emissiya prospekti "Qiymətli kağızlar bazarı haqqında" haqqında Azərbaycan Respublikası Qanununa (15 may 2015-ci il) uyğun tərtib edilib.

Qeyd:

Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**Bakı – 2022**

Emissiya prospektinin tərtib edilməsində iştirak edən şəxslər və
Emissiya prospektində təqdim edilmiş məlumatlara dair

# BƏYANAT

Biz, aşağıda imza edənlər,

**1.** Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli, 05 saylı Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydaları ilə tanış olduğumuzu təsdiq edirik.

**2.** Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 20 000 (iyirmi min) ədəd faizli, təmin edilməmiş, adlı, sənədsiz istiqrazların Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**25 Aprel 2022-ci il**

"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri:

İbrahimov Abbas Məmmədəli oğlu İmza

"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
OPEN JOINT STOCK COMPANY "THE INTERNATIONAL BANK OF AZERBAIJAN"
ABB

M.Y.

"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti sədrinin müavini, Baş maliyyə inzibatçısı:

Əliyev Nəbi Etibar oğlu İmza

# MÜNDƏRİCAT

## XÜLASƏ


1 Xəbərdarlıqlar 4
2 Emitent haqqında məlumat 4
3 İstiqrazlar haqqında məlumat 8
4 Risk faktorları 9
5 Təklif 9

**1. İstiqrazların emitenti barədə tələb olunan məlumat 11**

1 Emitentin auditorları barədə məlumat 11
2 Emitent barədə məlumat 13
3 Emitentin biznesinin icmalı 14
4 Digər təşkilatlarda iştirak 15
5 Tendensiyalar barədə məlumat 16
6 Gəlir proqnozu 17
7 Emitentin idarəetmə və nəzarət orqanları 17
8 Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar 19
9 Emitentin maliyyə məlumatları 21
10 Müqavilələr 21

**2. İstiqrazlar barədə məlumat 22**

1 Əsas məlumat 22
2 İstiqrazlar barədə məlumat 23
3 Təklifin şərtləri 25
4 Ticarətə buraxılma və onun tənzimlənməsi 28
5 Kredit reytinqləri 28

**3. Əlavələr 28**

1 Audit olunmuş maliyyə hesabatları 28

# XÜLASƏ

## 1. Xəbərdarlıqlar

BU SƏNƏD EMİSSİYA PROSPEKTİNİN GİRİŞ HİSSƏSİDİR.
İSTİQRAZLARA İNVESTİSİYA ETMƏK BARƏDƏ HƏR HANSI BİR QƏRAR İNVESTOR TƏRƏFİNDƏN EMİSSİYA PROSPEKTİNİ OXUDUQDAN SONRA HƏYATA KEÇİRİLMƏLİDİR.
EMİSSİYA PROSPEKTİNDƏKİ MƏLUMATLAR YANLIŞ, QEYRİ-DƏQİQ, ZİDDİYYƏTLİ OLDUĞU VƏ YA QİYMƏTLİ KAĞIZLARA İNVESTİSİYA EDİB-ETMƏMƏK BARƏDƏ QƏRAR VERƏN İNVESTORLARA KÖMƏK ETMƏK MƏQSƏDİLƏ ƏSAS İNFORMASİYANIN VERİLMƏDİYİ TƏQDİRDƏ EMİSSİYA PROSPEKTİNİ HAZIRLAMIŞ ŞƏXSLƏR MÜLKİ MƏSULİYYƏT DAŞIYIRLAR.

## 2. Emitent haqqında məlumat

**2.1. Emitentin tam adı:** "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

**2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, qeydiyyatda olduğu ölkə:**

2.2.1. **Emitentin olduğu yer:** Bakı ş., Nəsimi ray., Nizami küç., ev. 67, AZ1005

2.2.2. **Emitentin təşkilati-hüquqi forması:** Açıq Səhmdar Cəmiyyəti

2.2.3. **Emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası

**2.3. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** İnflyasiya, devalvasiya, revalvasiya, uçot dərəcəsinin və ölkənin digər əsas makroiqtisadi göstəricilərinin kəskin dəyişməsi.

2.3.1. **İqtisadi faktorlar**

Post-pandemiya dövründə iqtisadi bərpanın yavaşlaması, bir çox iqtisadi göstəricilərin gözlənilən volatilliyini artırır. Belə ki, azalan bazar faizləri bank sektorunda faiz gəlirlərini azaltmaqla yanaşı, bankın məhsullarına olan mövcud tələbə də mənfi təsir edə bilər.

2.3.2. **Rəqəmsallaşmanın tətbiqi**

Emitent həm fərdi, həm də korporativ bankıçılıqda əsas tendesiyalardan biri kimi qəbul edilən rəqəmsallaşmanın effektiv və sürətli tətbiqinə xüsusi önəm verir. İstehlakçı əməliyyatlarının müştəri tərəfindən mobil tətbiq və ya internet bankçılığı üzərindən aparılması həm resursların effektiv idarəsinə, həm xidmət keyfiyyətinin yüksəldilməsinə, həm də əməliyyat səmərəliyinin artmasına səbəb olacaq. Rəqəmsallığa keçid müştəri məlumatlarının daha rahat toplanması və analitikasına da öz növbəsində müsbət təsir edəcək.

### 2.3.3. İstehlakçı inamının qorunması və məlumatların təhlükəsizliyi

Rəqəmsallaşma sayəsində istehlakçı və bank arasında informasiya assimetriyası azalsa da, onlayn əməliyyatlara adaptasiya istehlakçının bankın IT sisteminə və məlumat təhlükəsizliyinə olan tələblərini artırır. Bu tendesiya fonunda Bank IT sistemlərinin optimallaşdırılması, əməliyyat zamanı meydana gələn uğursuz cəhdlərin və gecikmə müddətinin minimallaşdırılmasını əsas amillərdən biri kimi qiymətləndirir.

### 2.3.4. Dəyişən biznes modellər

Bu faktor bir çox bankları yeni rəqabətqabiliyyətli xidmət təklifləri yaratmağa, biznes xətlərini optimallaşdırmağa və gəlirliliyi qorumaq üçün əməliyyat səmərəliliyində davamlı təkmilləşdirmələr axtarmağa vadar edir. Dəyişən tələblərə uyğunlaşmaq seçim olmadığından emitent çeviklik üçün strukturlaşdırılır və lazım gəldikdə yeni modelləri tətbiq etmə üçün lazımi addımlar atır.

### 2.3.5. Sosial faktorlar

Demoqrafik dəyişikliklər, xüsusilə də əhalinin yaş bölgüsündə gənc nəslin payının artması bankçılıqda istehlakçı davranışlarının dəyişməsini və bu dəyişikliklərə biznesin sürətli adaptasiyasını tələb edir. "X" və "Z" nəslinin onlayn əməliyatlara üstünlük verməsi, ənənəvi bankçılığa da təsir göstərir. Habelə, pandemiya dövründə insanların gündəlik yaşayışında, davranışlarında baş verən dəyişikliklər, daha durğun həyat tərzi bankçılığa təsir edən amillərdəndir.

**2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri.** Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:

| Adı | Fəaliyyət göstərdiyi ölkə | Mülkiyyət payı |
|---|---|---|
| "Bank ABB-Moskva" MMC | Rusiya Federasiyası | 100% |
| "Azərikard" MMC | Azərbaycan Respublikası | 100% |
| "IBA GEO" - SC | Gürcüstan Respublikası | 100% |
| "Beynəlxalq Lizinq Şirkəti" MMC | Azərbaycan Respublikası | 100% |
| "Bakı Banklararası Valyuta Birjası" QSC | Azərbaycan Respublikası | 20% |
| "Azərbaycan Kredit Bürosu" MMC | Azərbaycan Respublikası | 12.5% |
| "Bakı Fond Birjası" QSC | Azərbaycan Respublikası | 4.76% |
| "ABB-İnvest İnvestisiya Şirkəti" QSC | Azərbaycan Respublikası | 100% |

**2.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

**2.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Müstəqil audit şirkəti olan "Ernst & Young Holdings (CIS) B.V."-nin verdiyi audit rəyinə əsasən "Azərbaycan Beynəlxalq Bankı" ASC müvafiq dövr üçün hazırladığı konsolidasiya edilmiş maliyyə vəziyyətini, maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**2.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı təqdim edildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat.**

| (min manatla) | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Cəmi Aktivlər | 9,341,745 | 9,204,782 | 11,753,259 |
| Cəmi Öhdəliklər | 7,658,017 | 7,507,889 | 10,050,568 |
| Cəmi Kapital | 1,683,728 | 1,696,893 | 1,702,691 |
| Pul vəsaitləri | 2,789,673 | 2,504,501 | 6,837,554 |
| **Gəlirlər** | | | |
| Xalis faiz gəliri | 338,520 | 301,538 | 325,744 |
| Xalis haqq və komissiya gəliri | 65,591 | 60,874 | 58,152 |
| Dilinq gəlirləri | 68,248 | 47,346 | 59,316 |
| Mənfəət | 215,708 | 178,956 | 139,592 |
| Aktivlərin gəlirliliyi (ROA, %) | 2.30% | 1.94% | 1.19% |

Audit edilmiş maliyyə hesabatlarının son dərcindən bəri Bankın strateji hədəfləri, biznes layihələri, gəlir və xərcinin strukturu ilə bağlı əhəmiyyətli heç bir dəyişiklik baş verməyib.

**2.8. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr: Son iki ildə yüksək gəlirlilik və mənfəət göstəriciləri:** 2020-ci ildə - 179 milyon manat, 2021-ci ildə - 140 milyon manat. Son iki ildə yüksək kapital adekvatlıq göstəriciləri: 2020-ci ildə I dərəcəli kapitalın adekvatlıq əmsalı (32.99%) və Məcmu kapitalın adekvatlıq əmsalı (35.12%);

2021-ci ildə I dərəcəli kapitalın adekvatlıq əmsalı (37.37%) və Məcmu kapitalın adekvatlıq əmsalı (39.40%). 2020 və 2021-ci illərdə yüksək aktivlərin gəlirliliyi və kapitalın gəlirliliyi: ROA 1.94% və 1.19%, ROE 10.55% və 8.20%, uyğun olaraq.

## 2.9. Emitentin əsas fəaliyyətlərinin təsviri:

"Azərbaycan Beynəlxalq Bankı" ASC bank fəaliyyəti göstərməsi üçün 30 dekabr 1992-ci il tarixində 2 saylı lisenziyaların mərkəzi reyestrinə daxil edilmişdir. Hazırda Bank 01.02.2006-cı il tarixində verilmiş bank fəaliyyətini həyata keçirmək üçün 06/06-224 saylı lisenziyaya malikdir.

Bankın əsas fəaliyyət növləri aşağıdakılardır:

- Tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- Kreditlərin (təminatlı və (və ya) təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
- Fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- Klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlərin göstərilməsi;
- Ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə vekselləri) buraxılması;
- Öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin), qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə maliyyə alətlərinin satın alınması və satılması;
- Öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- Qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;
- Öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- Maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
- Kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- Sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
- Qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi;
- Qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

Bank valyuta qiymətlilərinin (nağd xarici valyuta və xarici valyutada qiymətli kağızlar) Azərbaycan Respublikası ərazisinə gətirilməsi və respublikadan çıxarılması üçün 01 fevral 2006-cı il tarixli 1 saylı İcazəyə malikdir.

**2.10. Mühüm iştirak payına malik şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:** Bank səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan maliyyə qurumu olmaqla, nizamnamə kapitalının 95,3829% hissəsi Azərbaycan Respublikasına məxsusdur. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli "Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında" Fərmanına əsasən, Azərbaycan Respublikası adından idarəetmə Azərbaycan İnvestisiya Holdinqinə verilmişdir və həmin qurum Səhmdarların Ümumi Yığıncaqlarında qərarların qəbul edilməsində həlledici səsə malikdir.

## 3. İstiqrazlar haqqında məlumat

3.1. **İstiqrazların növü və forması:** adlı, faizli, sənədsiz, təminatsız istiqrazlar

3.2. **İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN)

3.3. **İstiqrazlarla təsbit olunan məhdudiyyətlər:** Qanunvericiliklə tənzimlənən prosedurlardan əlavə hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır.

3.4. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazların nominal dəyərindən **illik 6(altı)% olmaqla, rüblük qaydada** istiqrazların **tədavül müddəti ərzində faiz gəliri almaq;**
- Tədavül müddəti ərzində istiqrazların sərbəst özgəninkiləşdirmək;
- Cəmiyyət ləğv edildikdə və ya müflis olduqda, səhmdarlar qarşısında Cəmiyyətin əmlakına münasibətdə üstün tələb hüquqlarının əldə etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar;

3.5. **İstiqrazlar üzrə illik faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 6 (altı) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 2 (iki) il müddətində ildə günlərin sayı 360 (üç yüz altmış) və bir ayda günlərin sayı 30 gün olaraq götürülməklə) hər 3 (üç) təqvim ayından bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

3.6. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.7. **İstiqrazların geri satın alınma şərtləri:** İstiqrazların emitent tərəfindən geri alınması nəzərdə tutulmamışdır.

3.8. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazların bir kupon periodu üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF = \frac{\left(\frac{N*D*G}{360}\right)}{100}$$

TF – Bir istiqraz üzrə toplanmış faizlər (bir kupon periodu üzrə);

N – Bir istiqrazın nominal dəyəri (1.000 (bir min) manat);

D – İstiqrazların illik gəlirlilik dərəcəsi (6 %(altı));

G – İstiqrazlar üzrə son faiz ödənişindən sonra keçən günlərin sayı (bir ayda günlərin sayı 30 (otuz) kimi əsas götürülür)

3.9. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların kütləvi yerləşdirilməsi nəzərdə tutulduğundan istiqrazların mülkiyyətçisi yalnız onların yerləşdirilməsindən sonra müəyyən oluna bilər.

3.10. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.11. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri.** İstiqrazların kütləvi təklif üsulu ilə yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcək.

Bakı Fond Birjası (BFB) 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmişdir və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir.

## 4. Risk faktorları

4.1. **Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları aşağıdakılardır:**

- **faiz dərəcəsi riski** - faiz dərəcələrinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk;
- **inflyasiya riski** - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- **likvidlik riski** - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranmasının mümkünlüyü;
- **əməliyyat riski** - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- **hesablaşma və kontragent riski** - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- **kredit riski** - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;

4.2. **Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** Əlverişsiz makroiqtisadi trendlər nəticəsində Bank valyuta risklərindən formalaşan itkilərə məruz qala bilər, lakin Bankın güclü kapital mövqeyi bu tipli itkiləri örtməyə imkan verəcəkdir.

## 5. Təklif

5.1. **Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** istiqrazların yerləşdirilməsindən əldə olunan vəsait əsasən Bankın strateji hədəflərini reallaşdırması və Bankın əsas fəaliyyəti ilə bağlı digər layihələrin maliyyələşdirilməsi üçün istifadə ediləcəkdir.

5.2. **Təklifin şərtlərinin təsviri:**

Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış hərracın baş tutacağı tarix "Bakı Fond Birjası" QSC-nin və anderrayterin saytında investorlara açıqlanacaqdır.

İstiqrazların rəqabətli hərrac üsulu ilə yerləşdirilməsi aşağıdakı qaydada həyata keçiriləcəkdir:

- Rəqabətli hərrac üsullu ticarət zamanı əqdlər hərracın sonunda, toplanmış alış və ya satış sifarişlərinə qarşı qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) tərəfindən əks sifarişin daxil edilməsi yolu ilə bağlanır;
- Rəqabətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanması;
- Sifarişlərin qəbul edilməsi mərhələsində ticarət iştirakçıları (anderrayter və Bakı Fond Birjasının digər ticarət üzvləri olan investisiya şirkətləri) rəqabətli sifarişlər təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir;
- Əqdlərin bağlanması mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) təqdim edilmiş sifarişlərin icra ediləcəyi minimal qiyməti (kəsmə qiymət) müəyyən edərək əks sifarişi ticarət sisteminə daxil edir;
- Rəqabətli sifarişdə qeyd olunan qiymət kəsmə qiymətdən aşağı olmadıqda bu sifarişlər təmin edilir;
- Sifarişlərin qəbulu mərhələsində təqdim edilmiş sifarişlər (sifarişlər kitabı) yalnız qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısına (anderrayterə) açıqlanır. Digər hərrac iştirakçıları yalnız özlərinin təqdim etdikləri sifarişləri görə bilirlər.
- Hərrac zamanı qeyri-rəqabətli sifarişlər nəzərdə tutulmamışdır.
- Hərrac zamanı istiqrazların nominal dəyərindən aşağı qiymətə verilmiş sifarişlər təmin edilməyəcəkdir.

5.3. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:** Emissiyada aşağıdakı tərəflər iştirak edir və emitentlə "ABB-İnvest İnvestisiya şirkəti" QSC aidiyyatı şəxs olduğundan qanunvericiklə və daxili qaydalarla müəyyən olunmuş tələblər gözlənilir. Emitent və digər şəxslər arasında maraqlar toqquşması mövcud deyil.

5.3.1. **"Bakı Fond Birjası" QSC**. Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərracının təşkil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi;

5.3.2. **Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır.

İstiqrazların İstiqrazların emissiyası prosesində Azərbaycan Respublikası Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

5.3.3. **"ABB-İnvest İnvestisiya Şirkəti" QSC (anderrayter).** Müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alqı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

5.4. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği :**

5.4.1. **Vergilər.** İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2023-cü ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərə istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10 (on) faiz vergi tətbiq edilir. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaq.

5.4.2. **Xərclər.** İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərən investisiya şirkətinə müraciət etməlidir. Bakı Fond Birjasınıda yerləşdirmə xərci isə icra olunan əqdin həcmindən 0.02% (sıfır tam yüzdə iki faiz) təşkil edir.

# I. İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

**1. Emitentin auditorları barədə məlumat**

**1.1 Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat;**

| İl | Ad | Ünvan | Təşkilatda üzvlüyü |
|---|---|---|---|
| 2021 | Ernst & Young Holdings (CIS) B.V. | Bakı şəh., Neftçilər pr.153, Port Baku Tauers Biznes Mərkəzi, Cənub Qülləsi, 9-cu mərtəbə, AZ1010 | Ernst & Young Global Limited |
| 2020 | Ernst & Young Holdings (CIS) B.V. | Bakı şəh., Neftçilər pr.153, Port Baku Tauers Biznes Mərkəzi, Cənub Qülləsi, 9-cu mərtəbə, AZ1010 | Ernst & Young Global Limited |
| 2019 | Ernst & Young Holdings (CIS) B.V. | Bakı şəh., Neftçilər pr.153, Port Baku Tauers Biznes Mərkəzi, Cənub Qülləsi, 9-cu mərtəbə, AZ1010 | Ernst & Young Global Limited |

**1.2 Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi qeyd olunmayıb.

## 2 Emitent barədə məlumat

Bank hazırda aktivlərinin həcminə, müştəri bazasına və beynəlxalq əməliyyat portfelinə görə Cənubi Qafqaz regionunun ən aparıcı banklarından biridir. Azərbaycanın müxtəlif regionlarını əhatə edən 60 filial və 18 şöbəsi ilə bank fərdi və korporativ müştərilərə universal bank xidmətləri göstərir.

- **Emitentin tam adı və təşkilati forması:** "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti
- **Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin qeydiyyatı tarixi:** Emitent 30.12.1992-ci il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən "Azərbaycan Respublikası Beynəlxalq Bankı" Səhmdar-Kommersiya Bankı adı ilə dövlət qeydiyyatına alınmışdır. Adı dəyişdirilərək 23.12.2005-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti kimi yenidən dövlət qeydiyyatına alınmışdır.

- **Emitentin qısaldılmış adı:** "ABB" ASC
- **Dövlət qeydiyyat nömrəsi (VÖEN):** 30.12.1992-ci il tarixində dövlət qeydiyyatına alınmışdır, VÖEN: 9900001881
- **Emitentin ünvanı:** Bakı ş., Nəsimi ray., Nizami küç., ev. 67, AZ1005
- **Əlaqə məlumatları:** 937
- **Elektron vebsayt:** www.abb-bank.az

2.1 **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emissiya ediləcək istiqrazlar kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətinin ticarət platforması vasitəsilə yerləşdiriləcək. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmişdir və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. Bakı Fond Birjasının (BFB) missiyası qiymətli kağızların ticarətinin təşkilini və bağlanmış əqdlərin effektiv icrasını təmin edən ticarət sisteminin formalaşdırılması və inkişaf etdirilməsidir. BFB-nin strateji baxışı maliyyə alətlərinin qabaqcıl texnologiyalar əsasında likvid, şəffaf və ədalətli ticarətini təşkil etməklə çevik investisiya imkanları təklif edən etibarlı və dayanıqlı təşkilata çevrilməkdir.
BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları, BFB-nin nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

Emitentin tədavül müddəti bitməyən aşağıdakı göstəricilərə malik xaricdə emissiya edilmiş istiqrazları mövcuddur:

| Buraxılış tarixi | Bitmə tarixi | Kupon faizi | Həcm | Say | Nominal |
|---|---|---|---|---|---|
| 01.09.2017 | 01.09.2024 | 3.5% | 1,000,000,000 USD | 1,000,000 | 1,000 USD |

## 3 Emitentin biznesinin icmalı

### 3.1. Emitentin əsas fəaliyyət istiqaməti

"Azərbaycan Beynəlxalq Bankı" ASC bank fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 01.02.2006-cı il tarixində verilmiş 06/06-224 saylı lisenziyaya malikdir.

Bankın əsas fəaliyyət növləri aşağıdakılardır:

- Tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- Kreditlərin (təminatlı və (və ya) təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
- Fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- Klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlərin göstərilməsi;
- Ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə veksellәri) buraxılması;
- Öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin), qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə maliyyə alətlərinin satın alınması və satılması;
- Öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- Qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;
- Öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- Maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
- Kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- Sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);

- Qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi;
- Qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

Bank valyuta qiymətlilərinin (nağd xarici valyuta və xarici valyutada qiymətli kağızlar) Azərbaycan Respublikası ərazisinə gətirilməsi və respublikadan çıxarılması üçün 01 fevral 2006-cı il tarixli 1 saylı İcazəyə malikdir.

3.1 **Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:** Milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin cəlb olunması, kreditlərin verilməsi, köçürmə və hesablaşma-kassa əməliyyatlarının həyata keçirilməsi, Nizamnaməsində, bank lisenziyasında və qanunvericilikdə nəzərdə tutulmuş digər fəaliyyət növləri.

3.2 **Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu: Apple Pay** – Bankın 2021-ci ilin son aylarında təqdim etdiyi innovativ həll Apple Pay olmuşdur. Müştərilərə fiziki kart lazım olmadan ABB kartını Apple Pay-ə əlavə edərək təmassız və elektron kommersiya ödənişlərini icra edə bilərlər. Apple Pay Apple cihazları üçün nəzərdə tutulmuş rəqəmsal ödəniş vasitəsidir. Sürətli və təhlükəsiz ödəniş üsulu Apple Pay Azərbaycan bazarı üçün də artıq aktivdir.

**Transport layihəsi** – ABB-nin tətbiq etdiyi digər innovativ həllərdən biri transport layihəsidir. Müştərilər Azərbaycan Dəmir Yollarında gediş haqqını əlavə bilet almadan, növbə gözləmədən ödəniş kartları vasitəsilə ödəyə bilərlər. Tətbiq edilmiş yeni innovativ sistemlə stansiyalararası məsafə hesablanır, müştəri kartından gediş haqqı avtomatik olaraq stansiyadan çıxışda silinir.

**ATM NFC** – ABB yeni innovativ ATM-lər tətbiq etmişdir. Müştərilər ATM-dən təmassız istifadə edə bilərlər. ABB-nin yeni nəsil təmassız ATM-lərindən təmassız kart, ABB mobile, Apple Pay və s. ödəniş alətləri ilə vaxt itirmədən, bir neçə addımda pul məxaric etmək olar.

3.3 **Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** korporativ bankçılıq üzrə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi, pərakəndə bankçılıq üzrə istehlak kreditləri və kredit kartları, rəqəmsal bankçılıq.

3.4 **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:** Aktivlər baxımından Azərbaycan Beynəlxalq Bankı ölkənin ən böyük bankı sayılır və ümumi bazar payının 28.5%-ni təşkil edir.

## 4 Digər təşkilatlarda iştirak

4.1 **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

| Adı | Fəaliyyət göstərdiyi ölkə | Mülkiyyət payı |
|---|---|---|
| "Bank ABB-Moskva" MMC | Rusiya Federasiyası | 100% |
| "Azərikard" MMC | Azərbaycan Respublikası | 100% |
| "IBA GEO" - SC | Gürcüstan Respublikası | 100% |
| "Beynəlxalq Lizinq Şirkəti" MMC | Azərbaycan Respublikası | 100% |
| "Bakı Banklararası Valyuta Birjası" QSC | Azərbaycan Respublikası | 20% |
| "Azərbaycan Kredit Bürosu" MMC | Azərbaycan Respublikası | 12.5% |
| "Bakı Fond Birjası" QSC | Azərbaycan Respublikası | 4.76% |
| "ABB-İnvest İnvestisiya Şirkəti" QSC | Azərbaycan Respublikası | 100% |

4.2 **Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat:** Emitentin qrupdakı digər müəssisələrdən asılılığı yoxdur.

## 5 Tendensiyalar barədə məlumat

5.1 **Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən Emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Mənfi dəyişiklik olmayıb.

5.2 **Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Cari maliyyə ilində Emitentin fəaliyyətinə təsir etmə ehtimalı olan tendensiyalara aşağıdakıları aid etmək olar:

**Tələbin volatilliyi:** Emitentin əsas faiz gəlirinin böyük hissənin müştəri kreditlərindən gəlir və kreditlərin təqribən 52%-i biznes, 25%-i istehlak, 23%-i ipoteka və s. kreditlərindən ibarətdir. Bu halda hər iki gəlir seqmentində olan tələbdəki volatillik Emitentin fəaliyyətinə təsir göstərən əsas amillərdən biri olacaq. Postpandemiya dövründə iqtisadi bərpanın sürətlənməsi və iqtisadi aktivliyin artması fonunda biznes və istehlak kreditlərinə olan tələbin artması gözlənilir.

**Bazar rəqabətliliyi:** Bankçılıq sahəsində artan rəqabət və birdən çox güclü rəqibin mövcudluğu yeni bazar payının əldə olunması və cari bazar payının saxlanmasında risklərə səbəb ola bilər.

**Geosiyasi risklər və qeyri-müəyyənlik:** Qeyri-müəyyənlik riskin yaranmasının xarakterik səbəbidir. Bu hallarda geosiyasi risklər və ya iqtisadiyyatın istənilən sahəsində qeyri-müəyyənlik zamanı maliyyə xidmətləri və bankçılıq orta dərəcədə təsirlənən sahələrdəndir. Məhz buna görə də hər hansı geosiyasi risk bankın gəlirlərinə də mənfi təsir göstərə bilər.

**Koronavirus (COVİD-19) pandemiyasının mümkün yeni dalğası:** Məlumdur ki, koronavirus (COVİD-19) pandemiyası dünya iqtisadiyyatının bir sıra sahələrinə, eləcə də bankçılığa mənfi təsir göstərib. Banklar üzərində innovasiya və yeni xidmətlərin sərfəli şərtlərlə təklifinə olan təzyiqi artırıb. Banklar birbaşa bu təsiri hiss etməsə də, dolayı yollarla iqtisadi durğunluq və istehlakçı aktivliyinin azalması öz mənfi təsirini göstərir. Virusun mutasiya olunmuş yeni variantlarının ortaya çıxması və sürətli yayılması dünya iqtisadiyyatının pandemiya sonrası bərpasının gecikməsinə səbəb ola və bu ehtimal Emitentin fəaliyyətinə mənfi təsir göstərə bilər. Hazırda qlobal səviyyədə Pandemiya ilə bağlı göstəricilər azalan və nəzarət olunan istiqamətdə inkişaf edir.

## 6 Gəlir proqnozu

6.1 **Emitent öz mülahizəsinə əsasən, gəlir proqnozu barədə məlumatı Emissiya prospektinə əlavə edir:** Mövcud deyil.

## 7 Emitentin idarəetmə və nəzarət orqanları

7.1 **Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:** Emitentin ali idarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağı növbəti və növbədənkənar keçirilə bilər. Emitentin mühüm iştirak payına malik səhmdarı Azərbaycan Respublikasıdır (95.3829%).

**Emitentin Müşahidə Şurasının tərkibi aşağıdakı kimidir:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi |
|---|---|
| Mövsümov Şahmar Arif oğlu | Müşahidə Şurasının sədri |
| Əhədov Xalid Nurəddin oğlu | Müşahidə Şurasının üzvü |
| Hüseynov Emin Zamin oğlu | Müşahidə Şurasının üzvü |
| Eynullayev Mətin Balasən oğlu | Müşahidə Şurasının üzvü |
| İsmayılov Fəxri Yaşar oğlu | Müşahidə Şurasının üzvü |

Müşahidə Şurası Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirir, Nizamnamə və qanunvericiliklə nəzərdə tutulan digər səlahiyyətlərə malikdir.

**Emitentin İdarə Heyətinin tərkibi aşağıdakı kimidir:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi |
|---|---|
| İbrahimov Abbas Məmmədəli oğlu | İdarə Heyətinin sədri |

| | |
|---|---|
| Həbibullayev İlham Səbahəddin oğlu | İdarə Heyəti sədrinin birinci müavini, İdarə Heyətinin üzvü |
| Həbibullayev Elmir Şirin oğlu | İdarə Heyəti sədrinin müavini, İdarə Heyətinin üzvü |
| Əmirov Aqşin Zəkaray oğlu | İdarə Heyəti sədrinin müavini, İdarə Heyətinin üzvü, Baş risk inzibatçısı |
| Əliyev Nəbi Etibar oğlu | İdarə Heyəti sədrinin müavini, İdarə Heyətinin üzvü, Baş maliyyə inzibatçısı |
| Əhmədov Vasif Eldar oğlu | İdarə Heyəti sədrinin müavini, İdarə Heyətinin üzvü |
| Tahirli Taleh Ağacan oğlu | İdarə Heyəti sədrinin müavini, Baş transformasiya inzibatçısı |

İdarə Heyəti bankın cari fəaliyyətinə rəhbərlik edir. Onun səlahiyyətlərinə Nizamnamə və qanunvericiliklə nəzərdə tutulan, bankın digər idarəetmə orqanlarının səlahiyyətlərinə daxil olmayan məsələlər aiddir.

**Emitentin Audit Komitəsinin tərkibi aşağıdakı kimidir:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi |
|---|---|
| Məmmədov Azad Musa oğlu | Audit Komitəsinin sədri |
| Məmmədov Zamiq İsa oğlu | Audit Komitəsinin üzvü |
| Məmmədov Məcid Həsən oğlu | Audit Komitəsinin üzvü |

Audit Komitəsi bankın audit siyasətini və strategiyasını müəyyən edir, daxili audit planını təsdiq edir, audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirməklə yanaşı, Nizamnamə və qanunvericiliklə nəzərdə tutulan digər səlahiyyətlərə malikdir.

### 7.2 Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat.

Mülki Məcəllənin 49.3.-cü maddəsinə əsasən, hüquqi şəxs adından çıxış edən şəxs, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında təmsil olunan şəxs təmsil etdiyi hüquqi şəxsin maraqlarını öz maraqlarından üstün tutmağa borcludur. Həmin şəxs, bu vəzifələrin hüquqi şəxsin maraqlarına uyğun olaraq yerinə yetirilməsi üçün məsuliyyət daşıyır və hüquqi şəxsin nizamnamə kapitalında ən azı 5 faiz paya (səhmə) malik olan iştirakçılarının tələbi ilə o, vəzifələrini pozduqda, pozuntu nəticəsində hüquqi şəxsə dəymiş zərərin əvəzini ödəməlidir.
Həmçinin Məcəllənin 107-10.5 maddəsinə əsasən, cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin Direktorlar/Müşahidə Şurasına, o olmadıqda, Səhmdarların Ümumi Yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

"Banklar haqqında" Qanun da bankın inzibatçılarından maraqların toqquşması barədə şəffaflıq tələb edir. Belə ki, Qanunun 28-ci maddəsinin birinci bəndinə əsasən, Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin hər bir üzvü özünün və ailə üzvlərinin birbaşa və ya dolayısı ilə malik ola bildiyi mühüm kommersiya maraqlarını bankın Müşahidə Şurası qarşısında açıqlayır. Belə məlumatlar həmin şəxslər bankın idarəetmə orqanlarının üzvü seçildikdə və sonrakı dövrlərdə bankın daxili qaydalarına müvafiq olaraq açıqlanır. Müşahidə Şurasının, Audit Komitəsinin, İdarə Heyətinin və bankın hər hansı digər komitəsinin və ya işçi qrupunun üzvlərindən birinin, habelə daxili audit bölməsinin əməkdaşlarının marağı ilə bağlı məsələ müzakirəyə çıxarıldıqda həmin üzv öz marağı barədə müzakirə başlanmazdan əvvəl məlumat verməli, müzakirədə və qərarın qəbulunda iştirak etməməli, onun iştirakı isə yetərsayın müəyyən edilməsi zamanı nəzərə alınmamalıdır.
Bununla bərabər, MBNP-nın "Banklarda korporativ idarəetmə Standartları"nın 3.1.9-cu bəndinin tələblərinə əsasən, Bankda effektiv və etibarlı idarəetmə sisteminin tətbiqi üçün bankın səhmdarları və inzibatçıları tərəfindən maraqlar münaqişəsinə yol verməmək məqsədi ilə münaqişəyə səbəb ola bilən birbaşa və dolayı maraqların bank qarşısında tam və vaxtında açıqlanması tələb olunur.

## 8 Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar

### 8.1 Emitentin nizamnamə kapitalında 10%-dən çox iştirak payına malik olan şəxslərin adları və ünvanları barədə məlumat:

Bank səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan maliyyə qurumu olmaqla, nizamnamə kapitalının 95,3829% hissəsi Azərbaycan Respublikasına məxsusdur. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli "Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında" Fərmanına əsasən, Azərbaycan Respublikası adından idarəetmə Azərbaycan İnvestisiya Holdinqinə verilmişdir və həmin qurum Səhmdarların Ümumi Yığıncaqlarında qərarların qəbul edilməsində həlledici səsə (aşağıda qeyd olunan şərtlər nəzərə alınmaqla malikdir.

| Adı | Ünvanı |
|---|---|
| Azərbaycan İnvestisiya Holdinqi | Azərbaycan pr. 6, Bakı +994 12 599 87 80 |

**Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:**
Azərbaycan Respublikasının qanunvericiliyi və Emitentin Nizamnaməsi ilə müəyyən olunan məsələlər istisna olmaqla, Səhmdarların Ümumi Yığıncağında digər məsələlər üzrə qəbul olunan qərarlar yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul olunur. "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, Azərbaycan Respublikası Prezidentinin "Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında"

2009-cu il 7 avqust tarixli 144 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən, Bankın nizamnamə kapitalında dövlətə məxsus səhmlərin imkan verdiyi dərəcədə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş məsələlərin həll edilməsində dövlətin adından iştiraketmə hüququ aşağıdakılara həvalə edilmişdir:

**Azərbaycan Respublikasının Prezidentinə:**

- Bankın satılması, yenidən təşkili və ləğvi.

**Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan İnvestisiya Holdinqinə:**

- Bankın Müşahidə Şurası üzvlərinin, o cümlədən onun rəhbərinin vəzifəyə seçilməsi və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;
- Bankın icra orqanının rəhbərinin vəzifəyə seçilməsi, onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;
- müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri kredit təşkilatının aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;
- Bankın nizamnamə kapitalının artırılması və azaldılması barədə qərar qəbul edilməsi, səhmlərinin buraxılması müddətlərinin və şərtlərinin müəyyənləşdirilməsi, habelə mühüm iştirak payının əldə edilməsinə razılıq verilməsi;
- Bankın kənar auditorun təsdiqlədiyi və Audit Komitəsinin tövsiyə etdiyi illik maliyyə hesabatlarının təsdiq edilməsi, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul edilməsi;
- Bankın nizamnaməsinin təsdiq edilməsi və onun dəyişdirilməsi;
- Bankın törəmə təsərrüfat cəmiyyətlərinin yaradılması və fəaliyyətlərinə xitam verilməsi, başqa bankın satın alınması barədə qərarların qəbul edilməsi;
- bu Fərmanın 2.1-ci və 3.2-ci bəndləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu və Bankın nizamnaməsi ilə ümumi yığıncağın səlahiyyətinə aid edilmiş digər məsələlərin həll edilməsi.

## 8.2 Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:

"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2015-ci il tarixli 507 nömrəli Fərmanına əsasən emitentin özəlləşdirilməsi prosesinə başlanılması nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2022-ci il tarixli 1597 nömrəli Fərmanı ilə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin nizamnamə kapitalında dövlətə məxsus səhmlərinin özəlləşdirilməsi üzrə tədbirlər planının hazırlanaraq Prezidentə təqdim edilməsi ilə bağlı tələb ləğv edilmişdir.

## 9 Emitentin maliyyə məlumatları

9.1 **Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Emissiya prospektinə əlavə edilir.

9.2 **Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti 30.12.1992-ci ildə təsis edilmişdir və həmin ildən fəaliyyət göstərir.

9.3 **Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:**

9.3.1 **Maliyyə vəziyyəti haqqında hesabat:**

9.3.2 **Mənfəət və zərər haqqında hesabat:**

9.3.3 **Kapitalda dəyişiklik haqqında hesabat:**

9.3.4 **Nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabat:**

9.3.5 **Uçot siyasətləri və izahlı qeydlər:**

Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanır və yuxarıda qeyd edilənlər maliyyə hesabatlarında öz əksini tapır.

9.4 **Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emissiya prospektinə əlavə edilir.

9.5 **Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** 31 dekabr 2020 və 31 dekabr 2021-ci il tarixinə olan audit olunmuş illik maliyyə hesabatları, 31 mart 2022-ci il tarixinə olan rüblük maliyyə hesabatları Emissiya prospektinə əlavə olunur. 31 mart 2022-cil il tarixinə olan rüblük maliyyə hesabatları audit olunmamışdır.

9.6 **Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz aydan daha qısa müddət ərzində hazırlandığından, qeyd olunan yarımillik maliyyə hesabatı mövcud deyil.

9.7 **7 il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Mövcud deyil

9.7. **Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat.** 31 dekabr 2022-ci il tarixinə olan maliyyə hesabatlarının dərc olunmasından sonra bankın maliyyə vəziyyətində əhəmiyyətli dəyişikliklər baş verməmişdir.

## 10. Müqavilələr

10.1. **Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

# II. İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT

## 1 Əsas məlumat

1.1 **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:** Emissiyada aşağıdakı şəxslər iştirak edir və emitentlə "ABB-İnvest İnvestisiya şirkəti" QSC aidiyyatı şəxs olduğundan qanunvericiklə və daxili qaydalarla müəyyən olunmuş tələblər gözlənilir. Emitent və digər şəxslər arasında maraqlar toqquşması mövcud deyil.

1.1.1. **"Bakı Fond Birjası" QSC**

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alğı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərracının təşkil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

1.1.2. **Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş, Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi

1.1.3. **"ABB-İnvest İnvestisiya Şirkəti" QSC (anderrayter).** Müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alqı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

1.2. **İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** İstiqrazların yerləşdirilməsindən əldə olunan vəsait əsasən Bankın strateji hədəflərini reallaşdırması və Bankın əsas fəaliyyəti ilə bağlı digər layihələrin maliyyələşdirilməsi üçün istifadə ediləcəkdir.

1.3. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Bankda likvidlik problemi gözlənilmir, bütün tələb olunan likvidlik göstəriciləri normativlərə uyğundur.

## 2 İstiqrazlar barədə məlumat

2.1 Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik: Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Qanun, "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

2.2 **İstiqrazların növü və forması:** adlı, faizli, sənədsiz, təminatsız istiqrazlar

2.3 **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):** Hər birinin nominal dəyəri 1 000 (bir min) AZN olan 20 000 (iyirmi min) ədəd.

Emitentin tədavül müddəti bitməyən aşağıdakı göstəricilərə malik xaricdə emissiya edilmiş istiqrazları mövcuddur:

| Buraxılış tarixi | Bitmə tarixi | Kupon faizi | Həcm | Say | Nominal |
|---|---|---|---|---|---|
| 01.09.2017 | 01.09.2024 | 3.5% | 1,000,000,000 USD | 1,000,000 | 1,000 USD |

2.4 **İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN)

2.5 **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 16.1-ci maddəsinə əsasən, təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sistemin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27

Faktiki ünvanı: Bakı ş., Yasamal rayonu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

2.6 **Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Mövcud deyil.

2.7 **İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

Qanunvericiliklə tənzimlənən prosedurlardan əlavə hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır. İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:

- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazların nominal dəyərindən illik 6 (altı)% olmaqla, rüblük qaydada istiqrazların tədavül müddəti ərzində faiz gəlir almaq;
- Tədavül müddəti ərzində istiqrazların sərbəst özgəninkiləşdirmək ;
- Cəmiyyət ləğv edildikdə və ya müflis olduqda, səhmdarlar qarşısında Cəmiyyətin əmlakına münasibətdə üstün tələb hüquqlarının əldə etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar;

2.8 **İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 6 (altı) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 2 (iki) il müddətində ildə günlərin sayı 360 (üç yüz altmış) və bir ayda günlərin sayı 30 (otuz) gün olaraq götürülməklə hər 3 (üç) təqvim ayından bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

2.9 **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372 - 384-cü maddələri ilə tənzimlənir.

2.10 **Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

2.11 **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmayıb. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcək.

2.12 **Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcək. İstiqrazların yerləşdirilməsi zamanı pul vəsaitlərinin toplanması "ABB-İnvest İnvestisiya Şirkəti" QSC-nin hesablaşma agenti olan Azərbaycan Beynəlxalq Bankı" ASC vasitəsilə yerinə yetiriləcək.

2.13 **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılacaq.

2.14 **İstiqrazların geri satın alınmasının şərtləri:** İstiqrazların Emitent tərəfindən geri satın alınması nəzərdə tutulmamışdır.

2.15 **Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası:**

İstiqrazların bir kupon periodu üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF = \frac{\left(\frac{N*D*G}{360}\right)}{100}$$

TF - Bir istiqraz üzrə toplanmış faizlər (bir kupon periodu üzrə);

N - Bir istiqrazın nominal dəyəri (1.000 (bir min) manat);

D - İstiqrazların illik gəlirlik dərəcəsi (6 (altı) faiz);

G - İstiqrazlar üzrə son faiz ödənişindən sonra keçən günlərin sayı (bir ayda günlərin sayı 30 kimi əsas götürülür)

2.16 **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil

2.17 İstiqrazların emissiyası haqqında "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti tərəfindən 15№-li protokol, 3№-li qərar 15.04.2022-ci il tarixində qəbul olunmuşdur.

2.18 **İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsi üçün Emitent tərəfindən hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır. İstiqrazlar kütləvi təklif üsulu ilə yerləşdirildikdə qanunvericiliyə uyğun olaraq istiqrazlar maraqlı şəxslər tərəfindən əldə ediləcək.

2.19 **İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** Qanunvericiliklə nəzərdə tutulan halda istiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyində vergi tutulur. Hüquqi şəxs olan istiqraz mülkiyyətçilərinin istiqrazlar üzrə faiz gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsinə müvafiq olaraq ödəniş mənbəyində 10 (on) faiz dərəcə ilə vergi tutulur. Bununla yanaşı, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən fiziki şəxslər 1 fevral 2016-cı il tarixindən etibarən 7 (yeddi) il müddətinə yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri üzrə gəlir vergisindən azaddırlar.

## 3 Təklifin şərtləri

3.1 **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və anderrayterin saytında investorlara açıqlanacaqdır.

3.2 **Təklifin qüvvədə olduğu müddət ərzində prospektdə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır, açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

3.3 **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** Təklif "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanacaqdır.

3.4 **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi prosesində abunə yazılışı nəzərdə tutulmamışdır.

3.5 **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazların rəqabətli hərrac üsulu ilə yerləşdirilməsi aşağıdakı qaydada həyata keçiriləcəkdir:

- Rəqabətli hərrac üsullu ticarət zamanı əqdlər hərracın sonunda, toplanmış alış və ya satış sifarişlərinə qarşı qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) tərəfindən əks sifarişin daxil edilməsi yolu ilə bağlanır;
- Rəqabətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanması;
- Sifarişlərin qəbul edilməsi mərhələsində ticarət iştirakçıları (anderrayter və Bakı Fond Birjasının digər ticarət üzvləri olan investisiya şirkətləri) rəqabətli sifarişlər təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir;
- Əqdlərin bağlanması mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) təqdim edilmiş sifarişlərin icra ediləcəyi minimal qiyməti (kəsmə qiymət) müəyyən edərək əks sifarişi ticarət sisteminə daxil edir;
- Rəqabətli sifarişdə qeyd olunan qiymət kəsmə qiymətdən aşağı olmadıqda bu sifarişlər təmin edilir;
- Sifarişlərin qəbulu mərhələsində təqdim edilmiş sifarişlər (sifarişlər kitabı) yalnız qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısına (anderrayterə) açıqlanır. Digər hərrac iştirakçıları yalnız özlərinin təqdim etdikləri sifarişləri görə bilirlər.
- Hərrac zamanı qeyri-rəqabətli sifarişlər nəzərdə tutulmamışdır
- Hərrac zamanı istiqrazların nominal dəyərindən aşağı qiymətə verilmiş sifarişlər təmin edilməyəcəkdir.

3.6 **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların dəyəri manatla köçürmə yolu ilə hesablaşma agenti olan bank vasitəsilə ödənilir. İstiqrazları əldə etmək istəyən investorlar istiqrazların yerləşdirilməsi barədə məlumat açıqlandığı vaxtdan etibarən öz təsdiq edilmiş sifarişlərini investisiya şirkətinə təqdim edir və almaq istədikləri istiqrazların dəyərini hesablaşma agenti olan bankda müvafiq hesaba köçürürlər.

İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürülərək dondurulacaq, pul vəsaitləri isə anderrayterin hesablaşma agentində açılmış bank hesabına köçürüləcək. Buraxılış üzrə istiqrazların emissiyasının yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edildikdən sonra investorların depo hesabında olan istiqrazlar dondurmadan azad ediləcək, pul vəsaitləri isə Emitentin bank hesabına köçürüləcək.

3.7 **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

3.8 **İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlamasının mümkün olub-olmamasıbarədə məlumat:** İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və anderrayterin saytında investorlara açıqlanacaqdır.

3.9 **İstiqrazların təklif qiyməti. Qiymət məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirilməsi metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barədə məlumat:** İstiqrazlar 1 000 (bir min) AZN qiymətinə təklif olunur.

3.10 **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

3.10.1. **Vergilər.** İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2023-cü ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərə istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10 (on) faiz vergi tətbiq edilir. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaq.

3.10.2. **Xərclər.** İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərən investisiya şirkətinə müraciət etməlidir. Bakı Fond Birjasında yerləşdirmə xərci isə icra olunan əqdin həcmindən 0.02% (sıfır tam yüzdə iki faiz) təşkil edir.

3.11 **İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:**

İstiqrazlar öhdəlik götürülmədən yerləşdiriləcək.

**Anderrayterin adı:** "ABB-İnvest İnvestisiya Şirkəti" QSC

**Lisenziyası:** Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 18.09.2020-ci il tarixində verilmiş İŞ-05 nömrəli "investisiya şirkəti fəaliyyəti"nə dair Lisenziya

**Hüquqi ünvanı:** Bakı şəhəri, Nəsimi rayonu, Nizami küç, ev.67

**Faktiki ünvanı:** Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 609 (Globus Center 8-ci mərtəbə), AZ1065, Azərbaycan

**Xidmət haqqı:** Ümumi yerləşdirilmiş məbləğin 0.5 (sıfır tam onda beş) faizi həcmində müəyyən olunmuşdur.

3.12 **Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxt:** "Azərbaycan Beynəlxalq Bankı" ASC və "ABB-İnvest İnvestisiya Şirkəti" QSC arasında anderrayter müqaviləsi qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

## 4 Ticarətə buraxılma və onun tənzimlənməsi

4.1 **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya Prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

4.2 **Market meyker(lər) barədə məlumat:** Bazar şərtlərini nəzərə alaraq Emitent istiqrazların likvidliyinin qorunması məqsədi ilə market-meyker təyin edə bilər. Market-meyker təyin edildikdə, bu barədə məlumat Emitentin və "Bakı Fond Birjası" QSC-nin saytında açıqlanacaqdır.

## 5 Kredit reytinqləri

5.1 **Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:**

| Tarix | Beynəlxalq reytinq agentliyi | Uzunmüddətli Reytinq |
|---|---|---|
| 25.04.2022 | Fitch Ratings | "B" Stable |
| 13.04.2021 | Moody's | "B1" Pozitiv |

Bankın borc qiymətli kağızları üçün kredit reytinqi təyin olunmamışdır.

# III. Audit Olunmuş Maliyyə Hesabatları